**Azərbaycan Respublikasında balıqçılıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Balıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 722 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Balıqçılıq ~~əhəmiyyətli~~ su obyektlərinə zərərli təsirin yol verilən normaları", "*balıq və digər su bioresurslarından* istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və *balıq və digər su bioresurslarının qeyri-qanuni ovuna* cərimələr", "Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikasında *balıq və digər su bioresurslarından* istifadə haqqı və qaydaları" təsdiq edilsin (əlavə olunur).[1]

2. "Azərbaycan Respublikası balıqçılıq təsərrüfatı sututarlarında qiymətli balıq növlərinin, su heyvanlarının və onurğasızların ehtiyatlarının mühafizəsini gücləndirmək tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 1 mart tarixli 128 nömrəli qərarının birinci və ikinci bəndləri qüvvədən düşmüş hesab edilsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 6 sentyabr 1999-cu il
№ 146

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1999-cu il 6 sentyabr tarixli 146 nömrəli qərarı
ilə
TƏSDİQ EDİLMİŞDİR

## ***Balıq və digər su bioresurslarından* istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və *balıq və digər su bioresurslarının qeyri-qanuni ovuna* cərimələr**

### Ümumi müddəalar

1. Bu Qaydalar "Balıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikasının Su qanunvericiliyinə, Azərbaycan Respublikası ilə

Xəzəryanı dövlətlər arasında bağlanmış müqavilələrə, sazişlərə, razılaşmalara və digər beynəlxalq müqavilələrə və hüquq normalarına əsasən tərtib edilmişdir.

2. Azərbaycan Respublikasının *"Balıqçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda* nəzərdə tutulmuş hallar istisna olmaqla, *balıq və digər su bioresurslarından* istifadə ödənişlidir.

3. *Balıq və digər su bioresurslarından* istifadəyə görə ödəmələr və *balıq və digər su bioresurslarının qeyri-qanuni ovuna* cərimələr *balıq və digər su bioresurslarının* növündən, onların ov üsulundan, ov alətlərinin və texniki vasitələrin növündən, habelə su obyektlərinin təyinatından asılı olaraq differensiallaşdırılır.

4. *Balıq və digər su bioresurslarından* istifadəyə görə ödəmələrin növləri və dərəcələri aşağıdakı kimi müəyyənləşdirilir:

| ***balıq və digər su bioresurslarının* növləri** | ***balıq və digər su bioresurslarından*istifadənin dərəcələri** |
|---|---|
| Kilkə | 1,0 |
| Kefal | 2,0 |
| Siyənək | 2,5 |
| Çapaq | 2,0 |
| Xərçəngkimilər | 5,0 |
| Külmə | 2,0 |
| Çəki | 4,0 |
| Xəşəm | 5,0 |
| Sıf | 4,0 |
| Kütüm | 5,0 |
| Şamayı | 5,0 |
| Qarasol | 2,0 |
| Qızılbalıqlar | 10,0 |
| ~~Nərəkimilər~~ | ~~10,0~~ |
| Digər balıq növləri | 2,0 |
| Suiti | 1,0 |
| *Bölgə* | *300,0* |
| *Nərə* | *200,0* |
| *Uzunburun* | *180,0*[12] |

5. Balıq ehtiyatlarından istifadənin ödənişi (Q=L x K x N) düsturu ilə təyin edilir:

L — bir ton kilkə balığından *(xammal nəzərdə tutulur)* və yaxud bir ədəd suitindən istifadənin bazis qiyməti (manatla); Bazis qiyməti kilkə balığının və suitinin bazar qiymətinə uyğun götürülür. Bu qiymət Azərbaycanın və xarici dövlətlərin hüquqi və fiziki şəxsləri üçün müvafiq olaraq 5 və 10 faizi miqdarında qəbul edilir; [13]

K — *balıq və digər su bioresurslarının* növündən asılı olan dərəcədir;

N — ovlanması nəzərdə tutulan balıq və suitinin ümumi (limiti, *kvotası*) miqdarıdır (balıqlar üçün tonla, suiti üçün isə ədədlə hesablanır).

6. Ayrıca istifadədə, icarədə, bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan su obyektlərində *balıq və digər su bioresurslarından* istifadəyə görə ödəmələr bu Qaydanın 3-cü maddəsində göstərilən formada bələdiyyələr, mülkiyyətçilər, istifadəçilər və icarəçilər tərəfindən müəyyən edilir.

7. *Balıq və digər su bioresurslarından* istifadəyə görə güzəştlərin tətbiqi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir. *Bərpa məqsədi ilə balıq və digər su bioresurslarının akvakultura üçün ovu, habelə elmi-tədqiqat, nəzarət, idman və həvəskar ovu istisna olmaqla, balıq və digər su bioresurslarının ovu ödənişlidir.*

8. *balıq və digər su bioresurslarından* istifadəyə görə ödənişlər qanunvericilikdə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

9. Ödəmələrin tətbiq edilmə qaydaları:

a) Balıq və digər su bioresursları ehtiyatlarından istifadəyə görə ödəniş *Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fonduna* köçürülür.[14]

*b) Hüquqi və fiziki şəxslər tərəfindən balıq və digər su bioloji resurslarından istifadəyə görə ödənişlər aşağıdakı qaydada həyata keçirilir:*

*balıq və digər su bioloji resurslarından istifadə üçün 1000 tonadək kvota alan şəxslər müəyyən edilmiş ümumi dəyəri birdəfəlik tam həcmdə ödəyirlər;*

*kvotanın həcmi 1000 tondan çox olduqda, ümumi kvota üçün müəyyən edilmiş məbləğin 50 faizi ova icazə alınan zaman, qalan hissəsi isə növbəti rüb ərzində ödənilir. Bu kvotanı alan şəxslər kvota üçün müəyyən edilmiş ümumi məbləği birdəfəlik ödəyə bilərlər.*[15]

10. Ölçüsündən və çəkisindən asılı olmayaraq bir ədəd balıq, su heyvanı və onurğasıza vurulmuş ziyan minimum əmək haqqının aşağıdakı mislində müəyyən edilir:

| | |
|---|---|
| a) Balıqlar | |
| “Qırmızı kitaba” daxil edilmiş balıq növləri (kələmo, dəniz sıfı, poru, ilanbalığı, qızıl xallı) | *250* |
| Bölgə | *225* |
| Nərə, uzunburun, qızılbalıq, ağ qızılbalıq | *200* |
| Xəşəm, kütüm, sıf, şirbit, şamayı, ağ amur, enlialın | 30 |
| Çəki, karp, qarabel siyənəyi | 20 |
| Naxa, durna balığı, kefal, çapaq, külmə, qarasoy, xramulya, dabanbalığı, xanı balığı və siyənəyin digər növləri | 10 |
| *Kilkə (1 kq)* | *0,5*[16] |
| b) Kürü (1 kq.) | |
| Bölgə, kələmo, nərə, uzunburun | *200*[17] |
| c) Su heyvanları: | |
| Xəzər suitisi | 50 |
| ç) Su onurğasızları | |
| Xərçəng | 1,0 |

| | |
|---|---|
| Krevet | 0,5 |
| d) Dövlət qoruqlarında və digər xüsusi mühafizə olunan ərazilərdə qanunsuz ovlanmış və ya məhv edilmiş *balıq və digər su bioresursları* üçün cərimələr üç qatına tutulur. | |